2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 yanvar 2020-ci il tarixli, 23 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 17 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 13 saylı Xəzər-Pirallahı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Nəsirov Niyaz Eynulla oğlu Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 yanvar 2020-ci il taixli 23 saylı yazılı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli, 11/53-2 saylı qərarı ilə təsdiq edilmiş (23 iyul 2010-cu il tarixli 15/58-6 saylı və 19 oktyabr 2012-ci il tarixli 5/16 saylı qərarları ilə dəyişikliklər edilmiş) Təlimatın tələblərinə uyğun və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş və iclasda iştirakı təmin edilmişdir.

Namizəd N.E.Nəsirov müraciətində qeyd etmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə qeydə alınmaq üçün imza vərəqələrini və digər seçki sənədlərini dairə seçki komissiyasına qanunla nəzərdə tutulmuş müddətdə təqdim etməsinə baxmayaraq dairə seçki komissiyası tərəfindən əsassız olaraq onun namizədliyi qeydə alınmamışdır.

Namizəd N.E.Nəsirovun müraciəti ilə əlaqədar dairə seçki komissiyasından tələb edilərək alınan müvafiq sənədlər araşdırılmışdır. Müəyyən edilmişdir ki, namizəd 2020-ci il yanvar 3-də qeydə alınması üçün imza vərəqələrini və digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim etmiş, lakin komissiya Seçki Məcəlləsində göstərilən müddətdə və qaydada həmin sənədlərə baxmamışdır.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən İşçi qrupu tərəfindən imza vərəqələri və digər seçki sənədlərinin düzgünlüyünün yoxlanılması nəticəsində tərtib edilmiş 16 yanvar 2020-ci il tarixli protokol və rəylərdən görünür ki, namizədin qeydə alınması üçün təqdim etdiyi sənədlər o cümlədən, imza vərəqələrində olan seçici imzaları Seçki Məcəlləsinin tələblərinə uyğundur.

Belə ki, namizəd tərəfindən toplanılmış 500 seçici imzasından 462 etibarlı hesab edilmişdir ki, bu da namizədin qeydə alınması üçün kifayət edir. Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisindən seçicilərin azı 450 imzası toplanılmalıdır.

Qeyd edilənlərə əsasən şikayətin təmin edilməsi və N.E.Nəsirovun 13 saylı Xəzər-Pirallahı seçki dairəsindən deputatlığa namizəd kimi qeydə alınması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının

pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d I m:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 13 saylı Xəzər-Pirallahı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Nəsirov Niyaz Eynulla oğlunun 16 yanvar 2020-ci il tarixli 23 saylı müraciəti əsaslı olduğundan təmin edilsin.

2. 13 saylı Xəzər-Pirallahı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Nəsirov Niyaz Eynulla oğlunun həmin seçki dairəsi üzrə deputatlığa namizədliyi qeydə alınsın.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov